RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 31 (9198) 11 FEVRAL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Azərbaycan Türkiyəyə dəstək üçün tək ürək olub

**Fevralın 6-da baş verən dəhşətli zəlzələ ucbatından Türkiyədə yaşanan faciə Azərbaycan dövlətinin, xalqının dərin sarsıntısına, kədərinə səbəb olub.**

Türkiyəli qardaşlarımızın ağrı-acısını dərin kədərlə bölüşən xalqımızın hər bir üzvü onlara bu dar günlərində dəstək olmaq üçün səfərbər olaraq bir ürəyə dönüb. Bu gün Azərbaycanda vəzifəsindən, yaşından, cinsindən asılı olmayaraq, hər kəs zəlzələdən zərərçəkən qardaşlarımızın ağrı-acısına məlhəm olmaq üçün əlindən gələn köməyi göstərməyə, onlara can-dildən maddi və mənəvi dayaq durmağa çalışır. Bir qardaşın dar gündə digər qardaşının harayına yetişməsinin misilsiz nümunəsini dünyaya nümayiş etdirirlər.

Necə ki fevralın 8-də Türkiyə səfirliyinə gedərək baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Türkiyə səfirinə başsağlığı verdiyi zaman Prezident İlham Əliyev də bu barədə deyib: "...Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir".

### Qardaşlığın gücü

Azərbaycan Türkiyədə baş verən fəlakətdən dərhal sonra qardaş ölkənin yardımına tələsib. Fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək dərin hüznlə başsağlığı verən Prezident İlham Əliyev qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır: "Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır".

Fevralın 8-də Türkiyənin ölkəmizdəki səfirliyində olan Prezident İlham Əliyev səfir Cahit Bağçı ilə söhbəti əsnasında bildirib ki, Azərbaycan, hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyini, öz həmrəyliyini, həmişə olduğu kimi, nümayiş etdirir. "Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir", - deyə, məlumat verən dövlətimizin başçısı xüsusi olaraq vurğulamışdı ki, yəni bütün Azərbaycan xalqı bu gün qardaş türk xalqının yanındadır.

### Hərtərəfli yardım

Prezidentin tapşırığına əsasən, Azərbaycan dövləti zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Türkiyəyə hərtərəfli yardım göstərir.

→ 2

## "Azərbaycanlı olduğuma görə çox qürurluyam"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəsmi instaqram səhifəsində Türkiyədəki zəlzələdən zərərçəkənlərə humanitar yardımla bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva paylaşımında qeyd edib:



"Əziz həmvətənlər!

Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur.

Zəlzələ bölgəsində axtarış-xilasetmə işlərinə cəlb olunmuş xilasedicilərimizə, xəsarət alanların sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəməyən tibb işçilərimizə, faciədən zərərçəkmiş Azərbaycan vətəndaşlarının müəyyən edilməsi və təxliyəsi ilə məşğul olan diplomatik xidmət əməkdaşlarına, hadisələri yorulmadan işıqlandıran KİV nümayəndələrinə təşəkkürümü bildirirəm. Ölkəmizdə başlanılmış yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, yerli şirkət və təşkilatlara, xüsusilə yardım toplama məntəqələrində gecə-gündüz var gücü ilə işləyən könüllülərə, polislərə, bir sözlə, qardaş Türkiyə xalqının yanında olmağa çalışan hər kəsə minnətdaram! İnsanseverliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!

Zəlzələ nəticəsində həlak olanların sayının artması bizi olduqca kədərləndirir. Həlak olanlara Allahdan rəhmət diləyir, onların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram! Əminəm ki, Türkiyə xalqı öz iradəsi və mətinliyi sayəsində bu ağır sınaqdan sarsılmayacaq! Uca Tanrı dünyamızı qorusun! Türkiyə, səninləyik!".



## Yeni sərəncamla bütün növ pensiyalar indeksləşdirilərək 14,7 faiz artırıldı

### 1,1 milyon pensiyaçını əhatə edən yeni artımlar üçün illik əlavə olaraq 728 milyon manat xərclənəcək




**Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2023-cü il 10 fevral tarixli Sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ardıcıl addımların davamı, pensiyaçıların rifahının təminatına yönələn növbəti dəstəkdir.**

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sərəncamla 2023-cü il 1 yanvar tarixədək təyin edilmiş pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2022-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 14,7 faiz indeksləşdirilməklə bu ilin 1 yanvarından artırılır.

Yanvar ayının artımı fevral ayının pensiyası ilə birgə veriləcək. Məsələn, şəxsin pensiyası 400 manatdırsa, bu məbləğ cari il yanvarın 1-dən 14,7 faiz, yəni 58,8 manat artırılmaqla 458,8 manata çatdırılacaq, yanvar ayının 58,8 manat artımı da fevral ayında veriləcək.

Ümumilikdə 1,1 milyon pensiyaçını əhatə edən bu yeni artımlar üçün illik əlavə olaraq 728 milyon manat xərclənəcək.

Yeni qanunla bu ilin əvvəlindən pensiya artımı sahəsində vahid indeksasiya metoduna keçilməsi hər il indeksləşdirmə əsasında pensiya artımının ilk dəfə olaraq bütün növ pensiyalara şamil olunmasına imkan verib. Növbəti illərdə də bütün növ pensiyaların indeksasiya metodu ilə artırılması davam etdiriləcək.

→ 2

## Milli Məclis ölkə Prezidentinin təşəbbüsünə qoşulub

Bu günlərdə ölkəmizdə bir sıra dövlət qurumları, ayrı-ayrı təşkilatlar və sadə vətəndaşlar Türkiyədə baş vermiş təbii fəlakət - çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ ilə əlaqədar yardım kampaniyasına başlayıblar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin təqdir etdiyi bu humanitar yardım aksiyasına ölkənin Milli Məclisi də qoşulub.

Milli Məclis deputatlarının, parlament Aparatı və İşlər İdarəsi əməkdaşlarının da bu aksiyaya öz töhfələrini vermək məqsədilə topladıqları vəsaitə təbii fəlakət ərazisində böyük ehtiyac duyulan 40 ədəd daşınan generator alınaraq qardaş ölkəyə göndərilib.

*"Azərbaycan"*

## Laçın-Xankəndi yolunda ekoaksiya 62 gündür davam edir

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 62 gündür davam edir.



→ 8

## Faciəni yaşayanlar onu daha dərindən anlayarlar

### Ağdam sakinləri də Türkiyəyə dəstək üçün səfərbər olublar

"İndi türkiyəli qardaşlarımız o soyuqda evsiz-eşiksiz, ac-susuz olduqları halda bir türk olaraq biz burada isti yemək yeməyə, rahat yerdə yatmağa utanırıq". Türkiyədə zəlzələdən əziyyət çəkən soydaşlarımıza yardım gətirən ağdamlı bir gəncin hər kəsi duyğulandıran fikirlərindən bir parçadır bu sözlər.

Neçə gündür ki, dövlətimizlə yanaşı, sadə vətəndaşlarımız da baş verən fəlakətdən zərərçəkən türkiyəli qardaş-bacılarımıza dəstək olmaq üçün Azərbaycanın bütün bölgələrində yardım kampaniyalarına başlayıblar. Ağdam rayon sakinləri - keçmiş məcburi köçkünlər də bu dəstək kampaniyasına can-dildən qoşulublar. Ağdam Rayon İcra Hakimiyyətinin və YAP Ağdam Rayon Təşkilatının təşəbbüsü ilə sakinlər bu qardaşlıq köməyində fəal iştirak edirlər. Yardım edilməsi məqsədilə Ağdam Olimpiya İdman Kompleksində qərargah yaradılmışdır.

→ 5

## "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461; 2007, № 5, maddə 436, № 11, maddə 1053; 2008, № 5, maddə 348; 2009, № 12, maddə 948; 2011, № 7, maddə 591; 2017, № 10, maddə 1773; 2018, № 12 (I kitab), maddələr 2468, 2527; 2019, № 1, maddə 33, № 5, maddə 792; 2021, № 6 (I kitab), maddə 556) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 12.3-1-ci maddə əlavə edilsin:

"12.3-1. Daşınar əşyanın ipotekasının dövlət qeydiyyatına alınması üçün zəruri olan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

2. 13.1.1-ci maddəyə "tam olmadıqda" sözlərindən sonra "(bu Qanunun 12.3-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 14.2-1-ci maddə əlavə edilsin:

"14.2-1. İpotekanın əlavə dövlət qeydiyyatı üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

---

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108, № 6 (I kitab), maddə 547, № 11, maddə 1209; 2022, № 6, maddə 589) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 29.0.10-1-ci və 29.0.10-2-ci maddələr əlavə edilsin:

"29.0.10-1. ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını müəyyən etmək;

29.0.10-2. orta ixtisas təhsil müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını müəyyən etmək;".

2. 32.3.7-ci maddədə "və ixtisasını dəyişmək" sözləri ", ixtisasını və təhsilalma formasını dəyişmək, təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunmaq" sözləri ilə əvəz edilsin.

3. 32.3.12-ci maddəyə "dayandırmaq" sözündən sonra "(akademik məzuniyyət götürmək)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2022-ci il*

---

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 790-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 790-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.10-1-ci və 29.0.10-2-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir.

2. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571, № 11, maddə 1218, № 12, maddə 1364) 2.3-cü bəndinə "29.0.6-cı," sözlərindən sonra "29.0.10-1-ci, 29.0.10-2-ci," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 790-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

4.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.10-1-ci və 29.0.10-2-ci maddələrinə uyğun olaraq, ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində, habelə orta ixtisas təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsi qaydalarını iki ay müddətində tabeliyində müvafiq təhsil müəssisəsi olan dövlət orqanları (qurumları) və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə razılaşdırmaqla təsdiq etsin;

4.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 790-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2023-cü il*

---

## Yeni sərəncamla bütün növ pensiyalar indeksləşdirilərək 14,7 faiz artırıldı

*Əvvəli 1-ci səh.*

Beləliklə, hazırkı artım həm ümumi əsaslarla pensiya təyin olunmuş, həm də qulluq stajına görə əlavə alan pensiyaçılara (pensiyaçı hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları və b.) şamil olunacaqdır.

Bundan əvvəl isə ötən il pensiyaçılara ödənilən maddi yardımlar 2023-cü ilin əvvəlindən onların pensiyalarının tərkibinə daxil edilib. Maddi yardım daxil edilərək artırıldıqdan sonra yaranan pensiya məbləği bu dəfə indeksləşdirilərək artırılır.

Məsələn, 2022-ci ildə ayda 800 manat pensiya və onun 10 faizi miqdarında (80 manat) maddi yardım almış hərbi qulluqçunun pensiyası tərkibinə bu ilin əvvəlindən həmin 80 manat daxil edilib və yaranan 880 manat pensiya məbləği bu dəfə indeksləşdirilərək 14,7 faiz (129,36 manat) artırılmaqla 1009,36 manata yüksəlir.

Sərəncamla tətbiq edilən indeksasiya üzrə artım 2022-ci il üzrə orta inflyasiya dərəcəsini (13,9 faizi) üstələyir.

Eyni zamanda sərəncamla istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarındakı pensiya kapitalları da 13,9 faiz indeksləşdirilməklə artırılır.

Bu da əmək müqaviləsi əsasında işləyən şəxslərin fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları ilə deyil, həmçinin hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirmə əsasında da mütəmadi artmaqda olduğunu göstərir.

Pensiyaların indeksləşdirilərək artırılması elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçiriləcək, hər hansı sənəd təqdim etməyə, müraciət etməyə ehtiyac yoxdur.

---

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232, № 12 (I kitab), maddə 2520; 2019, № 2, maddə 202, № 6, maddə 1006; 2020, № 3, maddə 224; 2021, № 3, maddə 216, № 5, maddə 429; 2022, № 2, maddə 94, № 7, maddə 698) 1-ci maddəsində "2023-cü" sözləri "2024-cü" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2023-cü il*

---

## Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci, 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2023-cü il yanvarın 1-nə 2022-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2023-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğinin və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımların;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi hesabının sığorta hissəsində 2023-cü il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2023-cü il*

---

## Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən və Ələt Azad İqtisadi Zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin bu Sərəncamın əlavəsindəki yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 635,1 hektar hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumuna verilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2023-cü il*

---

## FHN-in təyyarə ilə yola saldığı növbəti humanitar yardım Türkiyəyə çatıb



Məlumat verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin növbəti humanitar yardımı fevralın 10-da təyyarə ilə qardaş ölkəyə yola salınıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, humanitar yardımı aparan təyyarə artıq Adana Hava Limanına enib. 200 ədəd çadır və 183 ədəd qızdırıcıdan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.

---

# Həmrəyliyin təcəssümü

## Azərbaycan Türkiyəyə dəstək üçün tək ürək olub

*Əvvəli 1-ci səh.*

Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar 6-9 fevral tarixləri ərzində Azərbaycandan Türkiyəyə 8 təyyarə və 24 yük avtomobili vasitəsilə humanitar yardım çatdırılıb, həmçinin 855 000 manat maddi yardım edilib.

Yardımlara 745 nəfər xilasetmə və tibbi personal, 1 ədəd mobil səhra hospitalı, 479 ədəd çadır, 4 ədəd səhra mətbəxi, 5 ədəd generator, 211709 ədəd dərman, tibbi ləvazimat və sair daxildir.

Həmçinin ölkəmiz təcili tibbi yardım, yanğınsöndürmə, AFAD və rəsmi axtarış xilasetmə maşınlarının pulsuz yanacaqla təmin edilməsini həyata keçirir.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı və digər şəhərlərdə, eləcə də Naxçıvan Muxtar Respublikasında yerləşən tibb müəssisələri Türkiyədə baş vermiş zəlzələdə zərərçəkmiş şəxslərin müalicəsi üçün hazır vəziyyətə gətirilib.

### Heydər Əliyev Fondunun böyük təşəbbüsü

Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələdən zərərçəkmişlərə dəstək məqsədilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fond tərəfindən humanitar yardımlar göndərilir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-da Türkiyəyə Heydər Əliyev Fondunun ilk humanitar yardım təyyarəsi göndərilib. Fondun qardaş ölkəyə ezam olunan əməkdaşları zəlzələdən zərərçəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər çatdırıblar.

XİN-in yaydığı məlumata əsasən, fevralın 9-dək Heydər Əliyev Fondu tərəfindən Türkiyədə zəlzələdən zərərçəkənlər üçün ümumilikdə 60 ədəd çadır, 47 min ədəd isti geyim və digər ləvazimatlar, eləcə də 4 yüz min ədəd dərman və tibbi ləvazimatlar göndərilib. Fondun Türkiyəyə yardımları davam edir.

Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə yardım göstərilməsi məqsədi ilə Azərbaycan vətəndaşlarına çağırışına qoşulan Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi də fevralın 8-dən humanitar kampaniyaya start verib. Bu kampaniya çərçivəsində vətəndaşlardan toplanan humanitar yardımlar da Heydər Əliyev Fondunun dəstəyi ilə zəlzələ bölgəsinə çatdırılır.

Xatırladaq ki, fevralın 9-da zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep Hava Limanında humanitar yardım gətirən Heydər Əliyev Fondunun əməkdaşları ilə görüşmüş, Azərbaycan dövlətinin və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü bildirmişdi.

"İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adından çox təşəkkür edirəm!", - söyləyən Rəcəb Tayyib Ərdoğan "Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!", - deyə vurğulamışdır.

### Hamı köməyə tələsir

Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində zərərçəkənlərə yardım məqsədilə Azərbaycanda fəaliyyət göstərən QHT-lər "Qardaş köməyı" adlı platforma yaradıblar. Bu platforma vasitəsilə kömək etmək istəyən şəxslər qardaş ölkədə zəlzələdən əziyyət çəkən vətəndaşlara müxtəlif ləvazimatlar göndərirlər.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Türkiyədə baş vermiş zəlzələdən zərərçəkmiş şəxslərə dəstək məqsədilə 4 günə ümumilikdə 1 milyon 554 min 558 lirə (140 min 105 manat) vəsait göndərib. Qızıl Aypara Cəmiyyəti bununla bağlı məlumat yayıb.

Ötən gün Azərbaycanın məscidlərində Türkiyədə zəlzələ qurbanlarının ruhlarına Quran oxunub, namaz qılınıb.

Bəli, Azərbaycan xalqı türkiyəli qardaşlarına bu çətin günlərdə arxa-dayaq, mənəvi dəstəkdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasında rəsmi səfərdədir

Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasında rəsmi səfərdədir.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan parlamentinin spikeri Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosanın xalqa müraciəti mərasimində iştirak edib. CAR parlamentinin hər iki palatasının birgə iclasından əvvəl keçirilən mərasimdə Siril Ramafosa ölkənin və rəhbərlik etdiyi hökumətin hədəfləri, qarşıda duran vəzifələr, xarici siyasi fəaliyyəti və digər prioritetlər barədə danışıb.

Prezidentin müraciəti başa çatdıqdan sonra parlamentarilər Milli Məclisin Sədri Sahibə Qafarovanı və tədbirdə iştirak edən digər parlament nümayəndə heyətlərinin rəhbərlərini salamlayıblar.

*"Azərbaycan"*

# Milli Məclisdə gənc diplomatlarla görüş



Fevralın 10-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və komitə üzvləri ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun Xarici İşlər Nazirliyi ilə birgə həyata keçirdiyi Gənc Diplomatlar üçün Xarici Siyasət Proqramı çərçivəsində bir qrup gənc diplomatla görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Türkiyədə fevralın 6-da baş vermiş zəlzələ nəticəsində həyatını itirmiş insanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Görüşdə çıxış edən Səməd Seyidov Azərbaycan parlamentinin strukturu, fəaliyyəti barədə məlumat verib. O, siyasi partiyaların və qadınların parlamentdə təmsilçiliyindən, parlamentə seçkilərin keçirilməsi qaydalarından, Milli Məclisin beynəlxalq təşkilatlarda iştirakından danışıb. Diqqətə çatdırılıb ki, parlamentdə beynəlxalq münasibətlərə xüsusi önəm verilir. Azərbaycanın qanunverici orqanında dünyanın müxtəlif ölkələri ilə parlamentlətarası əlaqələr üzrə işçi qrupları mövcuddur.

Komitə sədrinin müavini Sevinc Fətəliyeva çıxış edərək gənc diplomatlarla bu cür görüşlərin artıq ənənə halını aldığını deyib. Belə görüşlərin gənc diplomatlar üçün çox əhəmiyyətli olduğunu vurğulayan Sevinc Fətəliyeva dünyada vəziyyətin gərginləşdiyi bir zamanda diplomatların üzərinə böyük məsuliyyət düşdüyünü söyləyib. O bildirib ki, 44 günlük Vətən müharibəsində ölkəmiz ədaləti bərpa etdi və hazırda regionda mövqelərimiz daha güclüdür. Lakin mübarizə hələ də davam edir və Azərbaycanın ədalətli mövqeyinin dünyaya çatdırılması istiqamətində parlamentin, həmçinin diplomatların üzərinə böyük yük düşür.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Asim Mollazadə gənc diplomatların Azərbaycan diplomatiyasının gələcəyi olduğunu deyib. Azərbycanın səsinin dünyaya çatdırılması istiqamətində onların roluna toxunan Milli Məclisin deputatı Azərbaycan parlament diplomatiyasının əsas xüsusiyyətlərindən, tariximizin, mədəniyyətimizin dünyaya çatdırılması istiqamətində görülən işlərin əhəmiyyətindən bəhs edib.

Sonra görüşdə gənc diplomatları maraqlandıran suallar cavablandırılıb.

*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Fevralın 10-da baş prokuror Kamran Əliyev Kürdəmir Rayon Prokurorluğunun inzibati binasında Kürdəmir, Ağdaş, Ucar, Zərdab, Ağsu, Göyçay, həmçinin digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Görüşdə iştirak edən 58 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

* * *

Fevralın 10-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Ağdam rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbulda Ağdam, Ağcabədi və Laçın rayon sakinlərinin ərizə, müraciət və təkliflərinə baxılıb.

Qəbulda iştirak edən vətəndaşlar əsasən işlə təmin olunma, övladlarının xəstəliyinin müalicə edilməsi, onların təhsilinə dəstək və bir sıra digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşların Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri qurumun struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

*AZƏRTAC*

# Daha iki qazinin əməliyyat xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb





"YAŞAT" Fondu müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə işləri davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, müharibə əlili Elnur Səmədovun və Səbuhi Eyvazovun əməliyyat xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb. Qazilərimizin bundan öncə də müalicələrinə dəstək göstərilib və məişət şəraitləri yaxşılaşdırılıb.

Görülən işlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" (https://yashat.gov.az/report/tableau) bölməsindən əldə edə bilərsiniz.



## Heydər Əliyev İli 2023

# "Heydər Əliyev və Azərbaycanın vergi sistemi: Yeni çağırışlara doğru" mövzusunda konfrans keçirilib

Fevralın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanın vergi sistemi: Yeni çağırışlara doğru" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə İqtisadiyyat Nazirliyinin və nazirlik yanında Dövlət Vergi Xidmətinin rəhbərliyi, Milli Məclisin deputatları, dövlət qurumlarının, ali təhsil müəssisələrinin, ictimai birliklərin nümayəndələri, iş adamları və media təmsilçiləri iştirak ediblər.






Konfransın açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad olunub, Ulu Öndər haqqında film nümayiş etdirilib.

Tədbirdə Dövlət Vergi Xidmətinin (DVX) rəisi Orxan Nəzərlinin təklifi ilə Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində həlak olanların xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Konfransda çıxış edən DVX rəisi Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlara nəzər salıb. Bildirib ki, məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın milli inkişaf strategiyasının ən mühüm komponentlərindən biri - güclü milli iqtisadiyyatın qurulması istiqamətində böyük uğurlar əldə edilib. O cümlədən Azərbaycanın müasir vergi sisteminin fundamental əsasları da Ümummilli Liderin birbaşa təşəbbüsü və iştirakı ilə qurulub. Vergi sahəsində vahid qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi nəticəsində vergi siyasətinin güclü və səmərəli mexanizmləri formalaşdırılıb.

O.Nəzərli sonrakı dövrdə məhz bu konseptual yanaşmanın dövlət başçısı İlham Əliyev tərəfindən inkişaf etdirilməsi nəticəsində vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, eyni zamanda ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmləri ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməyə başladığını diqqətə çatdırıb.

2022-ci ilin göstəricilərini şərh edən DVX rəisi bildirib ki, dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, vergiödəyicilərinə xidmətlər çeşidinin və biznesin fəaliyyətinə effektiv vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi vergi orqanlarının fəaliyyətinin başlıca prioritetləridir. Dövlət Vergi Xidmətinin öz üzərinə düşən fiskal öhdəliklərin icrasını təmin etdiyini vurğulayan O.Nəzərli 2022-ci ildə ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolmasının təmin edildiyini və bunun 2021-ci illə müqayisədə 82,2 faiz çox olduğunu bildirib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxışında Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə milli iqtisadiyyatın inkişafı istiqamətində aparılan islahatlar, büdcə-vergi qanunvericiliyinin formalaşdırılması və təkmilləşdirilməsi, vergi siyasəti qarşısında duran hədəflər barədə danışıb.

Komitə sədri qeyd edib ki, vergi yığımlarının artmasının səbəblərindən biri də vətəndaşın dövlətə olan inamıdır. Bu inamın əsasında isə dövlət başçısının apardığı siyasət dayanır. İqtisadiyyatın rəqəmsallaşdırılmasının vergi bazasının müəyyən edilməsi yolunda müsbət nəticələrini qeyd edən T.Mirkişili ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin və vergi inzibatçılığının yeni çağırışlara uyğun təkmilləşdirilməsini vurğulayıb.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Ulu Öndər Heydər Əliyevin ölkənin iqtisadi tərəqqisi və sahibkarlıq mühitinin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayıb: "Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik", - tezisi ilə vergi siyasətinin milli iqtisadi strategiyanın mühüm tərkib hissəsi kimi aparıcı rolunu qeyd edən Ümummilli Lider müstəqil Azərbaycan dövlətinin vergi sisteminin formalaşmasının təşəbbüskarı və banisidir".

M.Cabbarov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sistemi son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə əsaslı yeniləşdirmə prosesi keçib, maddi-texniki bazası genişləndirilib, vergi inzibatçılığı texnoloji cəhətdən əsaslı surətdə yenidən qurulub.

2022-ci ildə neft və qazın qiymətlərinin müsbət dinamikasının yüksək səviyyəsinə baxmayaraq, dövlət büdcəsinin gəlirlərinin 50 faizinin qeyri-neft-qaz sektoru hesabına formalaşdığını qeyd edən nazir büdcə gəlirlərinin artmasında və əldə olunan uğurlarda vergi orqanlarının əhəmiyyətli roluna diqqət çəkib. Ölkədə iqtisadi artımın təmin edilməsi prosesində vergi sisteminin tənzimləyici funksiyalarının mühüm rol oynadığını bildirən M.Cabbarov qarşıdakı dövrdə vergi siyasətinin əsas hədəflərini açıqlayıb. O, bu hədəflərin ilk növbədə iqtisadi təşviq əsasında reallaşdırılacağını vurğulayıb: "Biz bunu işğaldan azad edilmiş ərazilərin nümunəsində görürük. Bildiyiniz kimi, bu ilin əvvəlindən Prezident İlham Əliyevin tapşırıq və təşəbbüsünə əsasən, vergi, sosial müdafiə, gömrük qanunvericiliyi sahəsində çox geniş təşviqlər qəbul edilib".

Nazir qeyd edib ki, vergi siyasətində rəqəmsallaşmanın genişləndirilməsi mühüm istiqamətdir. Xüsusilə son aylar ərzində Dövlət Vergi Xidməti ilə Dövlət Gömrük Komitəsi arasında əməkdaşlığın sinxronlaşdırılması qeyd edilməlidir. Bu, faktiki olaraq vergiödəyiciləri üçün eyni yanaşmaların tətbiqinin təmin edilməsinə imkan verib və hər iki qurumun fəaliyyətinin səmərəliliyini artırıb.

Konfrans işini "Heydər Əliyevin müasir vergi sisteminin formalaşdırılmasında rolu və iqtisadi siyasət sahəsində fəaliyyəti", "Müasir vergi siyasəti: biznes-dövlət münasibətləri və beynəlxalq trendlər" və "İşğaldan azad edilmiş ərazilərin bərpası: vergi siyasəti təşviq aləti kimi" mövzularında sessiyalarla davam etdirib.

"Heydər Əliyevin müasir vergi sisteminin formalaşdırılmasında rolu və iqtisadi siyasət sahəsində fəaliyyəti" mövzusuna həsr edilmiş sessiyada deputat Ziyad Səmədzadə, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Dövlət Vergi Xidməti rəisinin müşaviri Elçin Məmmədov, UNEC-in rektoru Ədalət Muradov və İqtisadi Elmi-Tədqiqat İnstitutunun direktoru Mahir Hümbətov çıxış ediblər.

"Müasir vergi siyasəti: Biznes-dövlət münasibətləri və beynəlxalq trendlər" mövzusunda keçirilmiş sessiyada Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva və baş idarə rəisi Nicat İmanov, AMCHAM-ın prezidenti Nərgiz Nəsrullayeva-Müdüroğlu, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə və Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyevin çıxışları dinlənilib.

"İşğaldan azad edilmiş ərazilərin bərpası: vergi siyasəti təşviq aləti kimi" mövzusunda təşkil edilmiş sessiyada isə DVX-nin baş idarə rəisi Ələkbər Məmmədov, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Zamin Bədirxanov, deputat Fatma Yıldırım, eləcə də Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanovun çıxışlarına yer verilib.

Qeyd olunan mövzularda geniş fikir mübadiləsi aparılıb, sahibkarların sualları ətraflı cavablandırılıb.

# Bìr yumruq, bìr ürək, bìr can



# Dar günün dostu

## Zəlzələ Azərbaycan-Türkiyə qardaşlığını bir daha dünyaya nümayiş etdirdi

Azərbaycanın Türkiyəyə humanitar yardımları davam edir. Həm dövlət səviyyəsində yardım göstərilir, həm də bu istiqamətdə müxtəlif kampaniyalar həyata keçirilir. Təbii fəlakət nəticəsində çətin günlərini yaşayan Türkiyəyə dəstək məqsədilə Azərbaycanda hamı səfərbər olub. Türkiyənin kədərini öz acısı kimi hiss edən xalqımız qardaşa kömək üçün əlindən gələni əsirgəmir.





Azərbaycandan Türkiyəyə 6-9 fevral tarixlərində yardımlar 8 təyyarə və 24 yük avtomobili vasitəsilə çatdırılıb. Ümumilikdə 745 nəfərlik xilasetmə və tibbi personal, xilasetmə işlərində istifadə olunan ləvazimatlar, generatorlar, nasos stansiyaları, avtomobillər, modul səhra hospitalları, tibbi avadanlıq, dərman preparatları, təxirəsalınmaz yardım vasitələri, çadırlar, yataq dəstləri və s., habelə zərərçəkmiş əhali üçün humanitar yardım göndərilib.

Bunlar yalnız dövlət səviyyəsində edilən yardımlardır. Bundan başqa, fiziki şəxslər və digər özəl şirkətlər tərəfindən göndərilən yardımlar da var.

Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın göstərişi ilə fondun ilk humanitar yardımı fevralın 9-da Türkiyəyə göndərilib. Fond qardaş ölkəyə zəlzələdən zərərçəkmiş şəxslər üçün dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər çatdırıb.

Naxçıvandan da tırlar vasitəsilə Türkiyəyə yardımlar göndərilir, eyni zamanda bölgələrimizdən, xaricdə yaşayan soydaşlarımız tərəfindən lazımi ləvazimatlar toplanaraq qardaş ölkəyə çatdırılır.

### Hər an Türkiyənin yanındayıq

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı bu günlərdə baş verən zəlzələ nəticəsində özünü daha qabarıq şəkildə göstərdi. O qeyd edib ki, dünya bir daha iki dövlətin bir-birinə nə qədər yaxın olduğunu, sevincini, kədərini necə həssaslıqla bölüşdüyünü, ən ağır günündə bir-birinin yanında olduğunu gördü. Türkiyədə zəlzələdən dərhal sonra Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana zəng edərək başsağlığı verdiyini və hərtərəfli yardım göstərməyə hazır olduğunu bildirdiyini xatırladan deputat vurğulayıb ki, elə ilk xilasedicilər qardaş ölkəyə Azərbaycandan göndərilib.

Aydın Mirzəzadə qeyd edib ki, dünyanın bir çox ölkəsi Türkiyəyə yardım göstərmək üçün dəstək nümayiş etdirir. Artıq 18 ölkənin xilasediciləri zəlzələ bölgəsində çalışırlar: "Ən çox xilasedicilər isə Azərbaycandandır. Dövlət tərəfindən Türkiyəyə səyyar hospital, tibbi personal, isti geyimlər, çadırlar və digər ləvazimatlar göndərilib. Yardımlar təkcə dövlət xətti ilə deyil, eyni zamanda ictimai təşkilatlar, sadə vətəndaşlar tərəfindən də həyata keçirilir. Özəl şirkətlər tərəfindən qardaş ölkəyə edilən yardımın həcmi bir milyon dollardan çoxdur və bu, davam edir. Heydər Əliyev Fondu vasitəsilə Türkiyəyə böyük həcmdə yardım göndərilib. Yeni Azərbaycan Partiyası da 100 min manatlıq yardım təşkil edib. Hər bir vətəndaşımız Türkiyəyə sevgisini, qardaşa dəstəyini ilk gündən göstərir. Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orada Türkiyə üçün yardım kampaniyası keçirilməsin".

Aydın Mirzəzadə onu da bildirib ki, Türkiyə səfirliyinə gedən dövlət başçısı başsağlığı verərək, Azərbaycanın hərtərəfli yardıma hazır olduğunu bəyan edib. Prezident SOCAR xətti ilə də Türkiyəyə yardım edildiyi və bundan sonra da ediləcəyini vurğulayıb. Eyni zamanda xilasetmə işləri qurtardıqdan sonra bərpa işlərində yaxından iştirak etməyə hazır olduğumuzu da qeyd edib".

Deputat onu da vurğulayıb ki, dost, qardaş çətin gündə tanınır. Azərbaycan həmişə, istənilən an Türkiyənin yanındadır. Ulu Öndərin dediyi kimi: "Bir millət, iki dövlətik".

### Qardaşlığın və səmimiyyətin təcəssümü

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri çox ölkələrə nümunədir. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə səmimi, yaxın olan dövlətlər tapmaq qeyri-mümkündür: "Qardaş Türkiyədə ayın 6-da baş vermiş zəlzələ Azərbaycan cəmiyyətinin hər bir üzvünü, sözün əsl mənasında, sarsıtdı. Hər kəs bu acını yaşamaqdadır. Xalqımızın mənəvi, emosional durumuna təsir etdi. Nəzərə almaq lazımdır ki, Türkiyə də hər zaman Azərbaycanın yanında olub. Dəfələrlə qeyd etmişik ki, 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin mənəvi və siyasi dəstəyi olduqca təsirli amil rolunda çıxış edib".

Deputat qeyd edib ki, Azərbaycan-Türkiyə ən müxtəlif vəziyyətlərdə və şərtlər fonunda, beynəlxalq platformalarda bir-birinə səmimiyyətlə dəstək olub, maraqlarını qoruyublar.

Türkiyədə baş vermiş zəlzələdən dərhal sonra Azərbaycan dövləti vaxt itirmədən hərtərəfli yardım göstərməyə başladı. İlk xilasedici qrup və digər dəstək məhz Azərbaycan tərəfindən Türkiyəyə göndərildi. Ayrıca olaraq Azərbaycan vətəndaşları da qardaş ölkə üçün əlindən gələni etməkdədirlər. Cəmiyyət üzvləri üçün hər hansı təşkilatçılığa ehtiyac qalmadı, hər bir azərbaycanlı öz istəyi, ürəyinin səsi ilə Türkiyənin yanında olduğunu, imkanları daxilində zəlzələdən zərərçəkənlərə dəstək göstərməyə çalışdığını nümayiş etdirdi.

"Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan Türkiyə münasibətləri digər ölkələr üçün örnəkdir. Cənab Prezident zəlzələdən sonra Türkiyənin Bakıdakı səfirliyinə gedərək başsağlığı verdi və Azərbaycan xalqının qardaş ölkənin dərdinə şərik olduğunu ifadə etdi. Bu, əsl qardaş münasibətidir", - deyə deputat əlavə edib.

O vurğulayıb ki, Azərbaycan Türkiyəyə bütün istiqamətlərdə ən yaxından dəstək olan dövlətdir. Deputat hesab edir ki, bu, Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun, iki ölkə arasındakı tam səmimiyyətin tərənnümüdür.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xalqımız zəlzələdən zərərçəkmişlərə yardım göstərməyi özünə mənəvi borc bilir

Qardaş Türkiyə Cümhuriyyətində fevralın 6-da baş vermiş zəlzələlər nəticəsində minlərlə insan həyatını itirmiş, on minlərlə insan ağır xəsarət almışdır. Faciə qurbanlarının və yaralıların sayı anbaan artmaqdadır. Türkiyə ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurumun dediyinə görə, Kahramanmaraş zəlzələsində ümumilikdə 13,5 milyon vətəndaş zərər görüb.




Zəlzələ baş verən gündən Azərbaycan xalqı üzüntülü və hüznlü günlər yaşayır. Böyükdən kiçiyə hamı bu faciənin baş verməsinə ürəkdən acıyır, insanlarımız Türkiyənin Bakıdakı səfirliyinə gedib başsağlığı verir, məscidlərə axışıb qardaş xalqın dərdinə şərik olur, bu faciəli günlərdə qardaş Türkiyə xalqı ilə bir yerdə olduqlarını bildirir, dünyasını dəyişənlərə Allahdan rəhmət diləyir, yaralılara tezliklə sağalmalarını arzulayırlar... Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda, Lənkəranda, bir sözlə, Azərbaycanın bütün bölgələrində insanlar Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini dərin hüzn və qardaşlıq ehtiramı ilə yad edir, yaralıların tezliklə sağalmaları üçün dualar edirlər.

Azərbaycan qardaş Türkiyəyə yardım edən ilk ölkə olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Prezident Rəcəb Tayyib Ərdoğana, ailəsinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı vermiş, yaralananların tezliklə sağalıb sağlam həyata qayıtmasını diləmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə dərin kədər hissi ilə qarşılaşdığını bildirmişdir.

Qeyd edək ki, faciə baş verəndən az sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun bir qrup hərbi tibb işçisi Türkiyəyə yola düşüb və vəzifə borclarını böyük fədakarlıqla yerinə yetirirlər. Ölkə rəhbərinin tapşırığına uyğun olaraq respublika Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri də zəlzələ bölgəsində əllərindən gələn köməyi edirlər.




Tarixdən və tarixi məxəzlərdən məlum olduğu kimi, Türkiyənin çətin günlərində Azərbaycan, Azərbaycanın çətin günlərində Türkiyə həmişə bir-birinə dayaq durub, kömək göstərib. Millətini və xalqını sevənlər, dövlətini və milli dövlətçilik ənənələrini yaşadanlar, bu müqəddəs missiyanı indi də şərəflə, qürurla davam etdirirlər. Bunu Türkiyə Respublikasında güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərdiyi köməyə görə Prezident İlham Əliyevin, eləcə də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın timsalında aydın görmək olur. Ötən əsrin əvvəlində də belə idi, indi də belədir. 1914-1918-ci illərdə "Qardaş köməyi" platforması bu sevgiylə, həssaslıqla qurulmuşdu. Hacı Zenalabdin Tağıyev, Ağamusa Nağıyev, M.Ə.Rəsulzadə, Nəriman Nərimanov, Xəlil İbrahim, Orucov qardaşları, Ömər Faiq Nemanzadə, Əhməd Cavad, Əli Səbri, Xosrov bəy Sultanov "himmət edin, qeyrət vaxtıdır", - deyib Şərqi Anadolu fəlakətzadələrinə insanları yardıma çağırırdı. Bakı məhəllə-məhəllə, ev-ev yardım edirdi.

Xalqımızın milli mentalitetinə xas olan bu dəyərli ənənə bu gün də gündəmdədir: Türkiyədə baş vermiş zəlzələ nəticəsində yardıma ehtiyacı olan əhaliyə kömək məqsədilə ölkəmizdə kütləvi yardım kampaniyasına başlanılıb. Yardım toplama məntəqəsi Bakı şəhəri, Heydər Əliyev adına İdman Konsert Kompleksində və Dənizkənarı bulvarda Əl Oyunları Sarayında təşkil edilib.

Yardım kampaniyasına dəstək olmaq istəyənlər qış paltarları, o cümlədən gödəkçə, şalvar, əlcək, corablar və s. əşyaları məntəqələrə təhvil verirlər. Eyni zamanda, çadır, yorğan, döşək, fənər, generator, təmizlik alətləri və s. istifadəyə yararlı əşyalar gətirirlər.

Kampaniya başlayandan qısa müddət ərzində xalqımız kütləvi şəkildə qardaş Türkiyəyə yardım üçün səfərbər olub.

Azərbaycan Prezidentinin tapşırığı ilə qardaş Türkiyənin zəlzələ bölgəsinə lazım olan humanitar yardım və kömək göstərilir. Faciədən zərər çəkmişlərə Heydər Əliyev Fondu tərəfindən xüsusi təyyarə vasitəsilə müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. daxil olmaqla, tibbi ləvazimatlar, eləcə də isti geyimlər çatdırılmışdır. Humanitar yardım davam etməkdədir.

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan və Türkiyə iki dövlət, bir millət olaraq həmişə bir-birinin yanındadır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Qardaş qardaşının əlindən tutar

Günlərdir ki, Türkiyədə böyük insan tələfatına səbəb olan dəhşətli zəlzələ ürəyimizi ağrıdır. Neçə gündür həyəcan içindəyik. İnsanlarımız evdə, öz isti ocağının başında oturub rahatlıq tapa bilmirlər. Uçqun, dağıntı altında, soyuqda zülm çəkən insanları gördükcə adamlar yediyindən utanır, geyindiyindən çəkinir.

Hadisədən xəbər tutan kimi dərhal, bir dövlət, bir xalq olaraq ayağa qalxıb can qardaşlarımızla acını bölüşməyə tələsdik. Dövlətimizin başçısı qardaşlarımıza yardıma getmək üçün dərhal tapşırıq verdi. Türkiyə səmasından ilk eniş edən Azərbaycanın xilaskar dəstələri oldu...

### Bir yumruq, bir bilək olduq

Bölməyi bacaran insanlara Allahın dostları deyirlər. Tanrı tikəsini bölməyi bacaranları sevər. Elə o andaca xalq süfrəsinin üstündən süfrə qarışıq çörəyini, qazandan qaynar yeməyini, dolabdan isti paltarını, geyəcəyini götürüb yardıma tələsdi. Dərd bölünəndə yüngülləşər. "Türkiyəm, sevinci sevincimiz, dərdin dərdimizdir", - dedi Azərbaycan xalqı. Yardıma gedənlərin sayı bir olmadı, beş olmadı, sel oldu. Yola düzülən yardım dolu maşın karvanları sevgi apardı Türkiyəyə... Dövlət xətti ilə gedən xilasedicilərlə yanaşı, Azərbaycan könüllüləri də acını birgə çəkmək, yükü birgə qaldırmaq üçün səfərbər olub yola rəvan oldular. Bir zamanlar Çanaqqala savaşında, Türkiyəni mühasirəyə alan düşməni dəf etmək üçün canlarını fəda etməyə gedən könüllü döyüşçülərimizin getdiyi kimi getdi gənclərimiz Türkiyəyə. Zamanında düşməni birlikdə dəf etdiyimiz kimi, bəlanı da birgə aşacağıq, - dedi oğullarımız. Faciə baş verdiyi andan bir ürək olan xalqlarımız həm də bir bilək oldu.

### Çanaqqaladan başlayan qardaş mərhəməti

Biz Türkiyə ilə yalnız dost dövlət deyilik. Dost arasında da bəzən anlaşılmazlıq, narazılıq olur. Biz xalqımızın böyük oğlu Heydər Əliyevin dediyi kimi: "Bir millət, iki dövlətik". Tarix türkü sınağa çəkdiyi bütün məqamlarda bu birlik öz etibarlılığını göstərib. Hələ ötən əsrin əvvəllərində düşmən əlbir, dilbir olub Türkiyəyə hücum edib varlığı ilə sınağa çəkəndə Mustafa Kamal Paşanın yadına ilk düşən Azərbaycan olmuşdur. 1920-ci il may ayının 3-də Mustafa Kamal Paşa Şərq Cəbhəsi komandiri Kazım Qarabəkir Paşaya göndərdiyi məktubda yazırdı: "Dövlətdə heç pul qalmadı. Ölkə daxilində pul təmin edə biləcəyimiz bir qaynaq yoxdur. Başqa qaynaqlardan pul əldə edənə qədər Azərbaycan hökumətindən borc pul alınmasını təşkil etmənizi istəyirəm".




Kazım Qarabəkir Paşa məktubu alar-almaz Atatürkün bu istəyini Azərbaycan hökumətinə bildirir. Xatırladaq ki, bu, həm də Azərbaycan Sovet Sosialist Respublikası ilə Ankara hökuməti arasındakı ilk rəsmi təmas idi. Həmin vaxt Azərbaycanın özü üçün olduqca ağır bir dövr idi. Amma Azərbaycan qardaş Türkiyəyə yox demir, ən çətin məqamında əlini uzadır.

Azərbaycanın xarici işlər naziri Mirzə Davud Hüseynov savaşda qazanılan uğurlar münasibətilə göndərdiyi təbrik teleqramında qeyd edir: "…Qazanılan büyük zəfərlərə görə türk xalqını Azərbaycan Sovet Sosialist Respublikası adından təbrik edirik". Eyni zamanda teleqramda bu böyük zəfərin şərəfinə Azərbaycan xalqına yardım üçün 30 sistern neft, 2 sistern benzin, 8 sistern kerosin göndərdiyini bildirib.

Həmin ilin may ayında Azərbaycan Türkiyəyə 62 sistern neft göndərmiş və bundan sonra savaş qurtarana qədər eyni dəyərdə neft və üç vaqon kerosin göndərmə öhdəçiliyi götürmüşdü. Mustafa Kamal Paşa 1921-ci ildə Nərimanova daha bir məktub yazaraq ondan borc pul istəmişdi. Türkiyə Cümhuriyyəti qurucusunun məktubu səfir vasitəsilə 1921-ci il mart ayının 17-də Nərimanova çatdırılan kimi, dərhal qardaş ölkəyə 500 kiloqram qızıl göndərilmişdi. Bunun 200 kiloqramı dövlət büdcəsinə keçirilmiş, qalanı isə silah və sursat almaq üçün istifadə edilmişdir. Eyni zamanda Nəriman Nərimanov Rusiyadan aldığı 10 milyon qızıl pulu da Ankaraya göndərmişdi. Bu yardımlar sayəsində döyüş içində olan ölkənin ağır vəziyyəti xeyli yaxşılaşmışdır. 1921-ci il mart ayının 23-də Azərbaycan hökuməti könüllü şəkildə Türkiyəyə Azərbaycan xalqının hədiyyəsi olaraq 30 sistern neft, 2 sistern benzin, 8 sistern yağ göndərib. Azərbaycanın Türkiyəyə yardımları bununla da bitməyib. 1922-ci ildə Batum yolu ilə Azərbaycan qardaş ölkəyə təmənnasız olaraq doqquz min tondan çox kerosin və 350 ton benzin göndərib.

### Qardaş qardaşa borc verməz

N.Nərimanov Mustafa Kamal Paşaya yazdığı məktubunda qazanılan uğurlar münasibəti ilə təbrik edir, Türkiyənin böyük gələcəyinə inandığını bildirir və sonda xüsusi olaraq qeyd edir: "Paşam, bizdə qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdən tutacaq və tutmağa davam edəcəyik".

Bu gün Türkiyədə baş vermiş dəhşətli zəlzələdən zərərçəkənlərə kütləvi xalq yardımı davam edir. Körpələr öz oyuncaqlarını, məktəblilər dərs çantalarını, böyüklər gücləri və imkanları çatdığı hər nə varsa, Türkiyəyə yardım edirlər. İş adamları pulları, malları ilə, dövlətimiz bütün gücü ilə Türkiyənin yanındadır. Bunu borc üçün, kimə isə göstərmək üçün etmirik. Dili, dini bir, sevinci, kədəri bir xalq olduğumuz üçün edirik. Edəcəyik də! Toparlanıb yenidən ayağa qalxacaq, yeni zəfərlərə birgə imza atacağıq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# Bìr yumruq, bìr ürək, bìr can

# Faciəni yaşayanlar onu daha dərindən anlayarlar

## Ağdam sakinləri də Türkiyəyə dəstək üçün səfərbər olublar





"İndi türkiyəli qardaşlarımız o soyuqda evsiz-eşiksiz, ac-susuz olduqları halda bir türk olaraq biz burada isti yemək yeməyə, rahat yerdə yatmağa utanırıq". Türkiyədə zəlzələdən əziyyət çəkən soydaşlarımıza yardım gətirən ağdamlı bir gəncin hər kəsi duyğulandıran fikirlərindən bir parçadır bu sözlər.




Neçə gündür ki, dövlətimizlə yanaşı, sadə vətəndaşlarımız da baş verən fəlakətdən zərərçəkən türkiyəli qardaş-bacılarımıza dəstək olmaq üçün Azərbaycanın bütün bölgələrində yardım kampaniyalarına başlayıblar. Ağdam rayon sakinləri - keçmiş məcburi köçkünlər də bu dəstək kampaniyasına can-dildən qoşulublar. Ağdam Rayon İcra Hakimiyyətinin və YAP Ağdam Rayon Təşkilatının təşəbbüsü ilə sakinlər bu qardaşlıq köməyində fəal iştirak edirlər. Yardım edilməsi məqsədilə Ağdam Olimpiya İdman Kompleksində qərargah yaradılmışdır. Qərargaha rayonun kənd və qəsəbələrində yaşayan sakinlər tərəfindən müxtəlif növ əşya və avadanlıqlar gətirilmişdir. Şəhid anası Maya Quliyeva, Ağdam Olimpiya İdman Kompleksinin direktoru Bəhruz Kazımov və sahibkar Hafiz Tapdıqov yardımların yığılmasında və çeşidlənməsində yaxından iştirak etmişlər.

Son məlumata əsasən, rekord həddə yardım toplanıb. Humanitar yardımla dolu iki TIR qardaş ölkəyə yola düşüb. Artıq TIR-lardan biri mənzilə çatıb, digəri yoldadır. Yardımların isə ardı-arası kəsilmir.

Bir həssas məqama da diqqət çəkək: Türkiyədə zəlzələdən zərərçəkənlərə ağdamlı şəhid ailələri, ümumiyyətlə, sosial statusundan asılı olmayaraq, hər kəs tərəfindən yardımlar göstərilir. Onlar gətirdikləri yorğan-döşək, isti paltar, qızdırıcı cihazlar, çadır, bir sözlə, gücləri çatan yardımları ilə fəlakət nəticəsində ev-eşiksiz qalan qardaşlarımıza kömək olmaq istəyirlər. Bu isti əməlləri ilə üşüyən qəlbləri qızdırmağa, onlara dayaq olmağa çalışırlar.

Axı onlar da vaxtilə belə bir ağrı-acını yaşayıblar, belə bir fəlakəti sümüklərinə qədər hiss ediblər...

Axı onlar qədər kim çəkər bir anın içində doğma od-ocağından məhrum olmağın ağrı-acısını...

Kim bilər bütün həyatının alt-üst olmasının, sahib olduğun hər şeyin bir anda yoxa çıxmasının iztirabını...

Kim yaşayar bir anın içində yaxınlarının, doğmalarının yoxluğuyla sınanaraq çarəsizcə acı göz yaşına boğulmağın ağrısını...

Bəli, bütün bu faciələri yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünlər kimi, ağdamlılar da yaşayıblar. Şaxtada, istidə acınacaqlı vəziyyətdə çadır, vaqon şəhərciklərində yaşamaqları, çörək, su yoxluğu ilə sınağa çəkilmələri də olub.

Elə buna görədir ki, vaxtilə özlərinin düçar olduqları bu zülm-zilləti qardaş-bacılarının da çəkməsini istəmirlər. Nənə-babaları, ana-ataları, uşaqları, körpələri gözüyaşlı, çarəsiz vəziyyətdə görmək onlar üçün iztirabdır.

Elə buna görədir ki, belə dar günlərində canı bir-qanı bir qardaşlarımızın acısını bölüşür, onlara hər cür arxa-dayaq olmağa çalışırlar.

Bu həm də ağdamlıların timsalında bütün keçmiş məcburi köçkün soydaşlarımızın 44 günlük müharibədə işğal altında qalan ərazilərimizin azadlığı üçün göstərdiyi mənəvi dəstəyə görə qardaş Türkiyəyə bir minnətdarlıq borcudur, iki qardaş xalqın xoş gündə də, dar gündə də birliyinin, həmrəyliyinin nümayişidir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***






# "Mətanət A" şirkəti Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) rəsmi fonduna 500 000 TL ianə edib

**"Mətanət A" şirkəti Türkiyədə baş verən təbii fəlakətdə həyatını itirənlərin ailələrinə dərin hüznlə başsağlığı verir, ölənlərə Allahdan rəhmət diləyir.**

Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial layihələrin davamı olaraq daim sosial məsuliyyətə önəm verən "Mətanət A" şirkəti fevralın 8-də Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) rəsmi fonduna 500 000 TL məbləğində vəsait göndərib.

Xatırladaq ki, bazar ertəsi Türkiyədə baş vermiş 7.7 ballıq zəlzələ nəticəsində ölkənin cənub-şərq bölgəsi ciddi dağıntılara məruz qalıb, minlərlə insan həlak olub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkədə 7 günlük matəm və 10 zəlzələ bölgəsində 3 aylıq fövqəladə vəziyyət elan edib.

AZPETROL

# "Azpetrol" şirkəti Türkiyəyə dəstək məqsədilə 120.000 dollar ianə edib

Qardaş ölkə Türkiyənin bir neçə şəhərində baş vermiş güclü zəlzələ nəticəsində zərərçəkmiş şəxslərə dəstək məqsədilə "Azpetrol" şirkəti Türkiyənin yardım fonduna 120.000 dollar ianə edib.

"Azpetrol" şirkəti həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzu edir.

# FHN-in növbəti humanitar yardımından ibarət avtomobil karvanı Türkiyəyə çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə fevralın 8-də Fövqəladə Hallar Nazirliyinin (FHN) xüsusi təyinatlı nəqliyyat vasitələri ilə yola salınmış növbəti humanitar yardım karvanı bu gün Türkiyənin Kahramanmaraş rayonuna çatıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 260 ədəd çadır, 300 ədəd çarpayı, 2 ədəd böyük gücə malik generator, 8 min geyim dəsti, 20 min cüt corab, 350 ədəd masa, 1000 ədəd oturacaq, 5 min ədəd iplik dəsmal və digər ləvazimatlardan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.



# Hərbi həkimlərimiz Kahramanmaraşda növbəti əməliyyatlarını icra ediblər

## Hərbi tibb personalımız 7 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 41 nəfərə ambulator yardım göstəriblər

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, qardaş ölkəyə ezam olunan Azərbaycan Ordusunun hərbi həkimləri Kahramanmaraşda fəaliyyətini davam etdirirlər.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi tibb personalımız Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə növbəti 7 cərrahi əməliyyatı uğurla icra edib, zərərçəkmiş 41 nəfərə ambulator yardım göstəriblər.

Türkiyəyə ezam olunan Azərbaycan Ordusunun tibb personalı ümumilikdə 17 cərrahi əməliyyat icra edib, baş vermiş zəlzələdən zərərçəkən 134 nəfəri müayinə edərək onlara ambulator yardım göstəriblər.





# Bir yumruq, bir ürək, bir can



## Qəlbimiz Türkiyə ilə döyünür...





Fevralın 6-da Türkiyədə baş vermiş dağıdıcı zəlzələlərdə axtarış-xilasetmə işləri davam edir, zərərçəkənlər üçün həm ölkə daxilindən, həm də xaricdən yardımlar gəlir. Zəlzələlər nəticəsində qardaş ölkədə 12 mindən çox bina və 66 mindən çox qeyri-yaşayış sahəsi dağılıb və ya ağır zədə görüb. Rəqəmlərdən də görünür ki, belə ağır faciə ilə üz-üzə qalan Türkiyənin dəstəyə böyük ehtiyacı var.



"Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk", - deyə Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubunda qeyd edib. Dövlət başçısı fevralın 8-də Türkiyənin ölkəmizdəki səfirliyində də olub, qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib. "Azərbaycan hər zaman olduğu kimi, zəlzələdən sonra ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi. Azərbaycan öz dəstəyini, öz həmrəyliyini həmişə olduğu kimi nümayiş etdirir. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik", - deyə Prezident bildirib.

Fəlakətin elə ilk günündən Azərbaycan dövləti, özəl qurumlar, ictimai təşkilatlar, sıravi vətəndaşlar, bir sözlə, hər kəs Türkiyə üçün səfərbər olub. Xalqımız qardaş Türkiyəni bu dar günündə tək qoymur. O cümlədən Heydər Əliyev Fondu tərəfindən zəlzələ bölgəsinə humanitar yardımlar göndərilir.

### Azərbaycan xalqı əl tutmağı, yardım etməyi çox yaxşı bacarır

Artıq üç gündür ki, digər yardım toplama məntəqələrində olduğu kimi, Heydər Əliyev adına İdman Konsert Kompleksinin qarşısında da izdiham müşahidə edilir. Havanın soyuq olmasına baxmayaraq, böyüklü-kiçikli minlərlə şəxs əlində müxtəlif əşyalarla - yorğan-döşək, isti geyimlər, eləcə də ərzaq, gigiyenik məhsullar, xalça, fənər, generator və isidici avadanlıqlarla həmin məntəqəyə tələsir. Kompleksdə yüzlərlə azərbaycanlı könüllü kimi fəaliyyət göstərir. Məntəqəyə gətirilən yardımlar onlar tərəfindən çeşidlənir və yük maşınlarına yığılır.

Məntəqədə könüllü fəaliyyət göstərən Nəriman Cəfərli deyir ki, gətirilən yardımlar içərisində zərərçəkənlər üçün isti geyimlər, eləcə də əlcək, şərf, gödəkçələr, yataq dəstləri, təmizlik ləvazimatları üstünlük təşkil edir. Onun sözlərinə görə, edilən çağırışlardan sonra iki gündür ki, geyimlər əvəzinə, daha çox qida məhsulları gətirilir.

"Yardım gətirənlər arasında hər yaşda adama rast gəlmək mümkündür. Bir qutu peçenyeyə imkanı çatanlar belə bura üz tuturlar. Belə insanları gördükcə, köksümüz qabarır, daha aktiv çalışır, köməyə daha çox tələsirik", - deyə gənc könüllü fikrini tamamlayır.

Məntəqədə Türkiyə Qızıl Ay Cəmiyyətinin nümayəndələri ilə də rastlaşdıq. Onlar qeyd etdilər ki, bu cür gözəl ürək sahibi hər insana, hər xalqa nəsib olmur...

Yardım kampaniyasının təşkilatçılarının sözlərinə görə, Türkiyədən bildiriblər ki, orada artıq kifayət qədər yorğan-döşək, eləcə də geyimlər mövcuddur. Ona görə də hazırda qida və gigiyenik məhsullara, eləcə də generator və isidicilərə daha çox ehtiyac var.

"Təki, ürəklərdə qardaşlıq eşqi olsun. Və Azərbaycan xalqı cani könüldən əl tutmağı, yardım etməyi çox yaxşı bacarır", - deyə Türkiyə Qızıl Ay Cəmiyyətinin üzvü bildirir.

### Türkiyə bu sınaqdan da alnıaçıq çıxacaq

Hər kəs çeşidləmə işinə kömək etmək üçün arakəsmələrlə ayrılmış hissələrə yaxınlaşır, əlindən gələni edir. Könüllülər çeşidləmədə hətta ayaqqabıların və geyimlərin ölçülərini də nəzərə alır, qutuların üzərinə içində nə olduğunu yazır və ya "yeni geyimlər" deyə qeyd edirlər. Qarışıqlıq düşməməsi üçün girişdə xidmət göstərən gənclər qida yardımı və geyim gətirənləri ayrı-ayrı istiqamətlərə yönləndirirlər. Gözümüzdən yayınmır ki, elə ətrafına əsasən azyaşlıların toplaşdığı xeyli qutunun üzərində "uşaq oyuncaqları" da qeyd olunub.

Ömərlə Efə Bakı Türk Anadolu liseyinin 6-cı sinif şagirdləridirlər. Onlar hələ iki gün əvvəl məktəbdə pul toplayıb, öz "cib xərc"lərini də üst-üstə qoyub Türkiyəyə yardım göndəriblər. İndi isə ən bəyəndikləri geyimlərini götürüb, lazım olan qidaları alıb zəlzələdən əziyyət çəkən uşaqlara göndərmək üçün valideynləri ilə birgə İdman-Konsert Kompleksinə üz tutublar.

Bakı sakini, əslən xocalılı olan Məmməd kişi deyir ki, o təqaüdündən imkanı çatan qədər ayırıb can qardaşlarımıza yardım göndərib. Bildirir ki, əlindən daha heç nə gəlməsə də, dilindən dua əskik olmur. "Dağıntılar altında can çəkişənlərə, şaxtalı havada evsiz-eşiksiz qalıb ailələrini axtaranlara Allahdan dözüm diləyirəm. Allah xalqımızdan razı olsun, gün ərzində yardımların ardı-arası kəsilmir. Təki, millətimin bu savab əməlləri bir qurtum su olub qardaşlarımızın qoluna güc, canına qüvvət versin", - deyə Məmməd kişi bildirir.

Azərbaycan tarix boyu çox çətinliklərdən keçən Türkiyənin bu acı sınaqdan da alnıaçıq, üzüağ çıxması üçün qardaş əlini uzadıb. Qardaş Türkiyə ən ağır fəlakətlərin belə açdığı yaraları sağaldacaq milli gücə və iradəyə sahibdir. Xalq şairi Bəxtiyar Vahabzadənin hələ 1999-cu ildə Türkiyədə baş verən zəlzələ barədə yazdığı şeirdə deyildiyi kimi:

*Tarix boyu bu əhdimiz pozulmaz,*
*Türk milləti xar olmamış, xar olmaz.*
*Hər bəladan türkün beli qırılmaz,*
*Sən ey mənim can sirdaşım, Türkiyə.*

***Nəzrin QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***





Qardaş Türkiyədə böyük insan tələfatına səbəb olmuş zəlzələdən zərərçəkən insanlara Heydər Əliyev Fondunun təşəbbüsü ilə başladılan yardım kampaniyası davam edir. Havanın şaxtalı, günün yenicə başlamasına baxmayaraq, Bakı İdman Sarayının qarşısında böyük bir izdiham yaşanırdı. İnsanlar kədər və hüzn içində gətirdikləri qardaş payını təhvil vermək üçün növbəyə düzülmüşdülər.

## Analar qızları üçün aldıqları cehizlik əşyaları da Türkiyəyə göndərirlər











Təşkilati işlərlə, gətirilən yardımın çeşidlənib qablaşdırılması və yola salınması işləri ilə "ASAN xidmət" və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri məşğul olurdular. Burada insanların vaxt itirmədən gətirdikləri əşyaları, ərzaq məhsullarını təhvil vermələri üçün hər cür şərait yaradılıb, eyni zamanda təhlükəsizlik tədbirləri görülüb. Təhlükəsizlik xidmətinə, hətta xüsusi təlim görmüş itlər də cəlb edilib. Toplanan yardım dörd yük maşını ilə artıq qardaş ölkəyə yola salınıb. Bakı İdman Sarayının salonunda və girişində hələ bir o qədər də bağlamaları var idi. Aksiya iştirakçıları ilə görüşüb söhbət edirik.

Mənsurə Haqverdiyeva göz yaşlarına hakim ola bilmədən fikrini ifadə edir: "Əslən Ağdamın Yusifcanlı kəndindənəm. Ağcəbədidə məskunlaşmışam. Türkiyədə baş verən fəlakəti görüb dözə bilmədim. Biz buna bənzər faciəni 1990-cı illərdə yaşamışıq. Evlərimizdən ayaqyalın, başıaçıq çıxmağa məcbur olmuşduq. O zaman başımıza bu bəlanı erməni faşistləri gətirmişdilər. Bəla bəladır, fərqi yoxdur, təbii, ya qeyri-təbii olsun... Yoxsulluğun, evsizliyin nə olduğunu biz öz həyatımızda yaşadığımız üçün bu dərdi daha yaxşı başa düşürük. Qızım üçün aldığım cehizlik əşyaları, qab-qazanı, yorğan-döşəyi, xalçanı Türkiyəyə göndərmək üçün bura gəlmişəm. Bir az da ərzaq almağa gücüm çatdı. Bilirəm ki, belə kiçik yardımla bu böyük dərdi sağalda bilmərəm. Amma qoy qan-qardaşlarımız bilsinlər ki, bu yardımla onlara sevgimizi göndəririk. Bu kampaniya mənəvi birliyimizi, bir-birimizə xalq olaraq qırılmaz tellərlə, canla, qanla bağlılığımızı simvolizə edir.

Gənc yardımsevər xanım Zeynəb Seyidova anası ilə Ağcabədidən gəlib:

- Türkiyədə baş verən zəlzələ xəbəri, faciənin böyüklüyü, çoxsaylı insan tələfatı bizi çox məyus edib. Açığını deyəcəyəm, nişanlıyam. Toyumuza hazırlaşırdıq. Düşünürdük ki, toydan sonra Türkiyəyə səyahətə gedərik. Orada qəhrəmanlıq dolu tarixi yerləri gəzərik. Gecə-gündüz çalışıb səyahət üçün bir qədər pul da toplamışdım. Bu faciəni, dağıntılar altında qalan körpələri, onların məzlum baxışlarını, ataların, anaların fəryadını, naləsini televizor ekranında izləyəndən sonra belə qərara gəldim ki, topladığım pula isti adyallar, uşaq paltarları, quru yemək və digər ərzaq alıb türk bacı-qardaşlarıma yardım edim. Əgər nə vaxtsa Türkiyəyə səfər etmək qismətim olarsa, özümə, vicdanıma hesabat verəndə deyə bilim ki, mənim bura gəlib gəzməyə, səyahət etməyə haqqım var. Sevincimiz bir olduğu kimi qardaş xalqın kədərini, dərdini də bölməyi bacarmalıyıq. İnanıram ki, Türkiyə toparlanacaq, yenidən ayaqüstə duracaq.

Yardım gətirənlərin sırasında Bakı Slavyan Universitetinin Məktəb Lisey Kompleksinin təşkilat işləri üzrə direktor müavini Naibə Kərimli də var idi. Bizimlə söhbətində Naibə xanım dedi ki, səhər tezdən kollektivimizin topladığı ən zəruri əşyaları və ərzaq məhsullarını gətirmişik. Buraya gələn insan selini görəndə dərdin böyüklüyünə baxmayaraq, adamın ürəyi fərəh hissi ilə döyünür. Bu kampaniya birliyimizin, dostluğumuzun, qardaşlığımızın böyüklüyünün, eyni zamanda sarsılmazlığının nümunəsidir. Bütün dünya görür ki, Azərbaycan xalqı dostluqda, qardaşlıqda sədaqətli, etibarlı xalqdır. Öz son tikəsini də bölməyi bacaran xalqdır. Türkiyə ilə Azərbaycanın dostluğunun yaşı tarixin yaşı qədərdir, min illərin sınağından çıxıb. Şübhəsiz ki, bu sınaqdan da qardaş Türkiyə daha mətin, daha məğrur çıxacaq.

İş yoldaşının fikirlərini Ruhəngiz Nağıyeva davam etdirir: "Eşidəndə ki, Heydər Əliyev Fondu Türkiyəyə yardım kampaniyasına başlayıb, dərhal kollektiv olaraq biz də bu təşəbbüsə qoşulduq. İki günün içində məktəbimizin kollektivinin üzvləri, şagirdlərimiz təşəbbüsə dəstək verdilər. Ən zəruri ərzaq malları, tibbi ləvazimatlar, elektrik sobaları, uşaq paltarları, yun adyallar alıb bu məntəqəyə gətirdik. Etdiyimiz yardımın bir bacı-qardaşımızın dərdinə azacıq məlhəm olduğunu, kimə isə hansısa köməyimizin dəydiyini hiss etsək, çox rahat olarıq. İnanın ki, adam görəndə ki, orada insanlar soyuqdan əziyyət çəkir, dağıntıların altından ayaqyalın, başıaçıq çıxarılır, isti evdə oturmağa, bişirdiyini yeməyə, aldığını geyməyə xəcalət çəkir. Allah Türkiyəmizi qorusun. Xalqlarımızın birliyi var olsun".

Nuru Rzayev ömür-gün yoldaşı Fəxriyyə xanımla yardım kampaniyasına qoşulub. Nuru deyir ki, Türkiyəyə gedib könüllü olaraq orada çalışmaq istəyir: "Yəqin ki, yaxın günlərdə bu niyyətimi də reallaşdıra biləcəyəm. Yardıma gəldikdə isə bu işin mənəvi tərəfidir. Əsas təşəbbüskar yoldaşım Fəxriyyə xanım oldu".

Söhbəti Fəxriyyə xanımla davam etdiririk:

- Qardaş ölkədə baş verən dəhşətli fəlakəti seyrçi kimi izləmək, biganə qalmaq mümkün deyil. Evdə bir az pulumuz var idi. Açığını deyim ki, yoldaşımla fikirləşirdik ki, bir maşın alarıq. Amma qardaşlarımızın başına gələn bu dəhşətli faciəni gördükdən sonra düşündük ki, türkiyəli qardaş və bacılarımızn bu ağır günündə, öz rahatlığımızı düşünmək bir insan kimi bizə yaraşmaz. Bu gün birlik, həmrəylik günüdür. Bu gün hər kəsin bacardığını etməyə borcu olduğu gündür. Biz də topladığımız pulun bir qismini isti paltara, ərzağa verib bura gətirmişik. Etdiyimiz yardım böyük bir şey olmasa da, ürəyimizi sakitləşdirmək üçün bir təsəllidir. Hər zaman bizə arxa-dayaq olub, dar gündə dadımıza yetişən Türkiyəyə olan borcumuzu qaytarmaq mənəvi işimizdir.

Gətirilən yardımın qablaşdırılması, daşınıb yerləşdirilməsi ilə əsasən könüllülər məşğul olur. Onlar gələnləri mehribanlıqla qarşılayırlar. Kömək etməyə çalışan, fəal bir gənc diqqətimizi cəlb edir. Sadiq İsmayılov deyir ki, "ASAN xidmət"in könüllülərindəndir. Üç gündür ki, gecə-gündüz burada çalışır. "Yorulmursanmı" soruşduqda, Sadiqin cavabı çox maraqlı oldu:

- Şəhidlər xiyabanında 1918-ci ildə Bakını ermənilərdən azad edərkən canlarını fəda etmiş 1200 türk əsgərinin şərəfinə abidə ucaldılıb. Nə zaman dara düşmüşüksə, köməyimizə türk qardaşlarımız çatıb. Türkiyə ilə imzalanmış "Şuşa Bəyannaməsi" gücümüzü, qüdrətimizi daha da artırıb. Hər zaman Türkiyəni təsəlli yerimiz, arxamızda dayaq olduğunu görmüşəm. Yorğunluq keçər, biganəlik unudulmaz. İnşallah, qismət olsa, Türkiyəyə gedib zəlzələnin fəsadlarının aradan qaldırılmasında da iştirak etmək niyyətim var.

Biz redaksiyaya dönəndə hava qaralmağa başlayırdı. Amma bu qaranlığı qəlbi, niyyəti gözəl insanların əməlləri işıqlandırırdı. Sarsılmaz Türkiyə-Azərbaycan dostluğunun canlı sübutu olan bu mənzərəni görən hər kəs canı-dildən alqışlayır. Alqış, min alqış!

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Enerji "rəngi"ni dəyişir

### Azərbaycanın "yaşıl enerji" istiqamətində atdığı addımları dünya dəstəkləyir



**"Azərbaycan 2030": sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsi əhəmiyyətli yer alıb. Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payını 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırılmasıdır. Azərbaycanda bərpaolunan enerjinin istehsalı üçün böyük potensialın olması bu sahədə mühüm layihələrin həyata keçirilməsinə zəmin yaradır.**

Azərbaycanın bu sahədəki perspektivləri dünyanın diqqət mərkəzindədir.  Ölkəmizin uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə xarici investorlar həvəs və inamla qoşulublar. Bir sıra dövlət başçılarının, görkəmli siyasətçi və mütəxəssislərin Azərbaycanda bərpaolunan enerji sahəsinin inkişafı ilə bağlı görülən işlər barədə fikirləri də xüsusi maraq doğurur.

Prezident İlham Əliyev bu yaxınlarda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilmiş 9-cu və "Yaşıl enerji" Məşvərət Şurasının 1-ci toplantısındakı çıxışında bərpaolunan enerjinin önəmini bir daha vurğulamışdır: "Bu gün biz Azərbaycanda "Masdar" və "ACWA Power" kimi investorlarla birlikdə günəş və külək enerjisinin istehsalı ilə bağlı iki sərmayə layihəsini həyata keçiririk. Bu layihələrin ümumi həcmi 470 meqavatdır. Həmçinin bu yaxınlarda bp şirkəti ilə birlikdə bir layihənin icrasına başlayacağıq. Bu, işğaldan azad olunmuş Cəbrayıl rayonunun ərazisində inşa ediləcək 240 meqavatlıq elektrik stansiyası olacaqdır... Bərpaolunan enerji ilə bağlı planlarımıza gəldikdə, artıq qeyd etdiklərimə əlavə olaraq deyə bilərəm ki, hələ ki, üç əsas enerji şirkəti ilə aramızda razılaşdırılmış və imzalanmış anlaşma memorandumu var. Onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal ediləcəkdir. Bu həcmin 10 qiqavatı "Masdar" şirkəti, 12 qiqavatı "Fortescue" şirkəti tərəfindən istehsal olunacaqdır. "ACWA Power" şirkəti isə bugünkü mərasimdə imzalanmış və hazırda icra olunan razılaşmaya əlavə olaraq 2,5 qiqavat enerjinin istehsalı üzrə öhdəlik götürəcəkdir. Bu, həqiqətən də çox böyük potensialdır... Azərbaycan, həmçinin çox böyük "yaşıl enerji" potensialına malikdir. Bu, artıq təsdiq olunmuş faktdır. Yalnız dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır, iki ildən də artıq müddət əvvəl Vətən müharibəsi zamanı azad etdiyimiz torpaqlarda 10 qiqavata yaxındır. Biz, həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən etmişik".

Avropa İttifaqı və tərəfdaşlar Azərbaycanın bu sahədəki perspektivlərinə maraq göstərir və güvənirlər. Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson bu barədə belə demişdir: "Azərbaycanda bərpaolunan enerjinin, xüsusən də dənizdə külək enerjisinin istifadə edilməmiş potensialı yaxşı məlum olan faktdır. Buna görə Azərbaycan Avropa İttifaqına bərpaolunan enerji və hidrogenin ixracatçısına çevrilmək potensialına malikdir. Bizim Avropa İttifaqı naminə enerji proqramımız bərpaolunan enerji güclərinin qurulmasını və şəbəkəyə qoşulmasını gücləndirmək üçün Azərbaycanı artıq dəstəkləyir. Avropa İttifaqı masa üzərinə öz nouhau texnologiyasını və özəl sərmayələrini qoyur".

Azərbaycanın bərpaolunan enerjini ixrac edəcəyi gün də uzaqda deyil. Lakin təbii ki, hər hansı bir ixrac layihəsinin həyata keçirilməsi öncədən genişmiqyaslı işlərin görülməsini, infrastrukturun yaradılmasını tələb edir. Elektrik enerjisinin ötürülməsinin də özünəməxsus çətinlikləri və spesifik cəhətləri var.

Rumıniya Prezidenti Klaus Yohannis məhz perspektivdə bu istiqamətdə görülməli işlərin çox olduğunu demişdir: "Əslində, mövcud potensial və transsərhəd əməkdaşlığa aid olan infrastrukturun inkişaf etdirilməsi gündəlikdədir. Bu baxımdan "yaşıl enerji"nin istehsalı və onun nəqli ilə bağlı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış razılaşma önəmlidir. Bu sənəd 2022-ci il dekabrın 17-də Prezident Əliyevin Buxarestə səfəri zamanı imzalandı və bunun sayəsində Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli daha güclü Avropa enerji çərçivəsinin təhlükəsizliyinə imkan yaradacaqdır. Bu, həmçinin sizin planlarınızın həyata keçirilməsinə, iqtisadi rifahın təmin edilməsinə, təhlükəsizlik və iqlim sahəsində müvafiq tədbirlərin görülməsinə Avropa üçün və bizim tərəfdaşlarımız üçün imkan yaradacaq".

Macarıstanın Baş naziri Viktor Orban keçən ay Azərbaycan Prezidenti İlham Əliyevin həmin ölkəyə rəsmi səfəri zamanı verdiyi bəyanatında da bu məsələni vurğulayıb: "Biz Azərbaycanda istehsal edilən elektrik enerjisini Avropaya gətirəcəyik. Xəritəyə baxsanız görərsiniz ki, həm təbii qaz, həm də elektrik enerjisi baxımından Azərbaycandan gələn bu enerji həcmləri Macarıstandan keçəcək. Ona görə də Macarıstan da bu məsələdə uduşlu vəziyyətdə olmaq arzusundadır. Həmçinin nəqliyyat marşrutu üzərində yerləşdiyimiz üçün Macarıstanın da rolu artacaqdır".

2022-ci il yanvarın 13-də "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlqoyma mərasimində Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səud demişdir: "Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Bildiyiniz kimi, bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda 220 milyon kubmetr qaza qənaət olunacaq və biz il ərzində 400 min ton karbon qazının atmosferə atılmasını azaldacağıq. Bununla biz Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə vermiş olacağıq. Əlavə olaraq "ACWA Power" şirkəti Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi layihəsi ilə əlaqədar Anlaşma Memorandumu imzalayacaq ki, onun ümumi gücü təxminən 500 meqavat olacaq. İlkin mərhələdə külək enerjisindən istifadə potensialı araşdırılaraq yaşıl karbohidrogenlərin hasil edilməsindəki mümkün tətbiqi öyrəniləcək".

İndi bu planlar reallaşmaqdadır. Eləcə də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti Azərbaycandakı fəaliyyətini genişləndirmək üçün növbəti addımlar atır. 2022-ci il martın 15-də "Qaradağ" günəş elektrik enerjisinin təməli qoyularkən BƏƏ-nin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin dediyi sözlər indi öz yerini alır: "Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji sahəsində quraşdırılmış güclərin 30 faizə qədər artırılması kimi mühüm məqsədləri öz qarşısına qoyub. Biz Birləşmiş Ərəb Əmirlikləri də eyni məqsədi öz qarşımıza qoyuruq. Biz də 2030-cu ilə qədər həmin həcmin 30 faizə qədər artırılmasını planlaşdırırıq. Birləşmiş Ərəb Əmirlikləri və "Masdar" şirkəti təmiz enerjiyə aid geniş gündəliyin icrasında Azərbaycana birbaşa xarici sərmayələrini və dəstəyini davam etdirməyi səmimiyyətlə arzulayırlar və biz tərəfdaşlığımızı daha da gücləndirmək üçün daha böyük imkanları araşdıracağıq".

Keçən ay Energetika Nazirliyində Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa regionu üzrə direktoru Rana Karadşehin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş isə Azərbaycanın bərpaolunan enerji ehtiyatlarına marağın getdikcə vüsət aldığını təsdiqləyir. Bu göstərir ki, beynəlxalq maliyyə qurumları "yaşıl enerji" sahəsində də  Azərbaycanla əməkdaşlığı davam etdirəcəklər.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Həyata keçiriləcək layihələr nəticəsində 38 minədək iş yerinin yaradılacağı nəzərdə tutulub

**"2016-2022-ci illər ərzində 470-dən çox sahibkarlıq subyektinə 570-dən artıq investisiya təşviqi sənədi verilib". Trend-in məlumatına görə, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov tviter səhifəsində bildirib.**

Nazir qeyd edib ki, sahibkarların həyata keçirəcəkləri layihələr nəticəsində 5,5 milyard manatdan çox investisiyanın yatırılacağı, 38 minədək yeni iş yerinin yaradılacağı nəzərdə tutulub.

"Layihələrin 14 faizi Bakı şəhəri və ətraf qəsəbələrin, 86 faizi isə regionların payına düşür", - M.Cabbarov bildirib.

## Əlilliyi olan şəxslər sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıblar

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 33 nəfər imtiyazlı şəxs yollayışla təmin olunaraq xəstəliklərinə uyğun sanatoriya-kurort və müalicə mərkəzlərinə göndərilib.**



Yollayışla təmin olunanlar arasında 18 yaşınadək əlilliyi olan şəxslər də var. Onlar valideynlərindən birinin müşayiəti ilə göndəriliblər.

Vətəndaşlar Naxçıvan Muxtar Respublikasındakı "Duzdağ" Fizioterapiya Mərkəzi, "Darıdağ" Arsenli Su Müalicəxanası, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində bərpa-müalicə kursu keçəcəklər.

Sosial Xidmətlər Agentliyi tərəfindən ötən il ərzində 3200 imtiyazlı şəxs yollayışla təmin olunaraq sanatoriya-kurort və müalicə mərkəzlərinə yola salınıb. Onlardan 550-si şəhid ailələrinin üzvləridir.

## Əməkhaqqının birgə maliyyələşdirilməsi proqramı üzrə artıq 3727 şəxsə iş yerlərinə göndəriş verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə daha 200 şəxsə iş yerlərinə göndəriş verildi.**

Həmin şəxslərin bir il ərzində əməkhaqlarının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdiriləcək. Bu da qeyd olunan işçilərin məşğulluğunun təminatına şərait yaratmaqla, müvafiq işəgötürənlərə də dəstək məqsədi daşıyır.

Ümumilikdə iki il əvvəl icrasına başlanan proqram üzrə ötən dövrdə 500-dən çox işəgötürənlə əməkdaşlıq müqaviləsi imzalanıb  və bu əməkdaşlıq çərçivəsində 3727 şəxsə iş yerlərinə göndəriş verilib.

## Yeni müəssisədə işlər yekunlaşır

**İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "AK PACK" MMC-nin yumşaq polimer qablaşdırma məhsullarının istehsalı müəssisəsində son tamamlama işləri görülür.**

Hazırda müəssisədə avadanlıqların sınaq-sazlama işlərinə başlanılıb, yaxın günlərdə isə xammal və hazır məhsul anbarının tikintisinə start veriləcək.

İtaliya və Türkiyə texnologiyalarının tətbiq olunacağı müəssisədə 2 istehsal xətti üzrə 20 çeşiddən çox məhsul istehsal ediləcək.




İnvestisiya dəyəri 7 milyon manatdan çox olan müəssisədə 35 nəfər daimi işlə təmin ediləcək. İstehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, Orta Asiya, Yaxın Şərq və Avropa ölkələrinə ixracı da nəzərdə tutulur.

Qeyd edək ki, "AK PACK" MMC-yə 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidentliyi statusu verilib və müəssisənin 2023-cü ilin birinci yarısında istifadəyə verilməsi planlaşdırılır.

## Ceyhan terminalında xam nefti yükləmə-boşaltma əməliyyatları bərpa edilib

**Bu barədə Trend Bakı-Tbilisi-Ceyhan boru kəmərinin Türkiyədəki operatoru olan BOTAŞ Anonim Şirkətinə istinadən xəbər verib.**

"Zəlzələdən sonra tankerlərin yüklənməsi problemsiz həyata keçirilib", - şirkətin tviter səhifəsindəki paylaşımda belə deyilir.

Qeyd edək ki, bundan əvvəl Ceyhan terminalında tankerlərin yüklənməsi Botaş International Anonim Şirkəti tərəfindən müvəqqəti olaraq dayandırılmışdı.

bp şirkətinin məlumatlarına əsasən, Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri 2006-cı ildə istismara verildikdən sonra 2022-ci ilin sonunadək 5244 tankerə yüklənmiş 3,99 milyard barel (531 milyon tondan artıq) xam neft nəql edib.



Xatırladaq ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ümumi uzunluğu 1768 km təşkil edir, 443 km Azərbaycan ərazisindən, 249 km Gürcüstan ərazisindən, 1076 km isə Türkiyə ərazisindən keçir. Boru kəmərinin inşası 2003-cü ilin aprel ayında başladılıb, 2005-ci il mayın 18-də boru kəmərinə neft yüklənib.

## Qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının nominal artım tempi 27,9 faizə çatıb

### Aktiv ƏDV ödəyicilərinin sayı isə 15,1 faiz artıb

**İqtisadiyyatın bərpası və sürətlənən artım fiskal gəlirlərə əhəmiyyətli təsir etsə də, vergi daxilolmalarında artımda, şübhəsiz, vergi qanunvericiliyindəki dəyişikliklər və vergi inzibatçılığı da müəyyən rol oynayıb.**

Bu barədə Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli "Heydər Əliyev və Azərbaycanın vergi sistemi: Yeni çağırışlara doğru" mövzusunda keçirilən konfransda bildirib. Onun sözlərinə görə, ötən il qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının nominal artım tempi 27,9 faiz təşkil edib: "Əldə olunan fiskal nəticələrdə, iqtisadi artımla yanaşı, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların da böyük rolu olub".

DVX rəisi həmçinin qeyd edib ki, iqtisadi aktivlik, "kölgə iqtisadiyyatı"nın miqyaslarının azaldılması istiqamətində aparılan işlər bir çox sahələrdə fəaliyyətin leqallaşmasına, aktiv ödəyici kateqoriyasının artmasına imkan verib.

Diqqətə çatdırılıb ki, ƏDV ödəyicilərinin sayında müşahidə olunan artım isə fiskal baxımdan xüsusilə aktualdır. 2022-ci ildə aktiv vergiödəyicilərinin sayı 7, aktiv ƏDV ödəyicilərinin sayı 15,1, aktiv obyektlərin sayı isə 3,2 faiz artıb.




## Bütün layihələr üzrə işlər uğurlu olub

bp şirkəti  2022-ci ilin  yekunları  haqqında məlumatına həmişə olduğu kimi  "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının göstəriciləri ilə başlayıb.

Məlumatda bildirilir ki,  il ərzində "Azəri Mərkəzi Şərqi" (ACE) platformasının üst modullarının və qazma avadanlıqlarının inşası Bibiheybətdəki tikinti sahəsində davam edib. Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) dayaq bloku STB-01 daşıma barjasına yüklənib və artıq dənizə yola salınmağa hazırdır. Ümumiyyətlə, ACE layihəsi üzrə işlərin  80 faizi tamamlanıb.



AÇG-dən  hasilat da il boyu təhlükəsiz və etibarlı şəkildə davam edib. Bu yataqlar blokundan  gündə orta hesabla 415 400 barel, il ərzində isə təxminən 152 milyon barel, yəni 20 milyon ton neft hasil olunub.

Əsasən, Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə Azərbaycan dövlətinə gündə orta hesabla 7 milyon, ümumilikdə  2,6 milyard kubmetr AÇG səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Keçən il AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri ilə Səngəçal terminalına göndərilməsi davam edib. Qeyd edək ki, terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetr mavi yanacaqdır. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir.

Terminaldan ötən il 232 milyon bareldən çox neft və kondensat ixrac edilib. Bunun 225 milyon bareli Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri və təxminən 7 milyon bareli Qərb İxrac Boru Kəməri vasitəsilə göndərilib.

BTC vasitəsilə ixrac olunmuş  xam neft və kondensat Ceyhan terminalında 305 tankerə yüklənib və yola salınıb. Hazırda bu kəmər, əsasən AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

Qaz terminaldan əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK), genişləndirilmiş CQBK sistemi və terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. Keçən il buradan həmçinin gündəlik orta hesabla təxminən 68 milyon standart kubmetr (təxminən 2 milyard 416 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.

İl ərzində "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə və Avropadakı alıcılara qaz çatdırılması davam edib. "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 25 milyard standart kubmetr qaz və 4 milyon tondan artıq (təqribən 36 milyon barel) kondensat hasil olunub.

Əməliyyatçı şirkətin illik hesabatında həmçinin Xəzərdə aparılan geoloji kəşfiyyat işlərindən, əməkdaşlarının sayı, eləcə də Azərbaycandakı layihələrdə tərəfdaşları ilə birlikdə həyata keçirdiyi sosial proqramlardan bəhs olunub.

*"Azərbaycan"*

# "Şans Yağışı"nda ilk böyük uduş - 200 000 manat Goranboyda qazanıldı

**Milyonlarla insana xəyallarını reallaşdırma şansı yaradan "Azərlotereya" ASC-nin "Şans Yağışı" ani lotereyasında ilk böyük uduş - 200000 manat sahibinə qovuşub.**




Yeni satışa çıxarılan lotereya oyununda bu dəfə şans Goranboy sakini Aslan Aslanovun üzünə gülüb. O, Goranboy rayon ərazisindən aldığı bir biletlə 200 000 manat əldə edib.

Uzun illər lotereya oynayan qalibin nə vaxtsa böyük uduşu qazanacağına inamı olub. Foto və videogörüntüsünün paylaşılmasını istəməyən Aslan bəy mükafatı maddi ehtiyaclar və xeyriyyə işlərinə sərf edəcəyini bildirib.

"Şans Yağışı" Saatlı rayonunda da qazandırıb. Adının çəkilməsini istəməyən rayon sakininə 10 000 manat qismət olub.

"Poz-Qazan" ailəsinin yeni üzvü olan "Şans Yağışı"nın uduş fondu 34 000 000 manat təşkil edir. "Şans Yağışı" lotereya biletində 200 000 manat böyük uduş və milyonlarla digər müxtəlif məbləğli pul uduşları qazanmaq şansı var.

Oyun qaydaları ilə tanış olmaq üçün "Azərlotereya" ASC-nin rəsmi veb-saytına https://azerlotereya.com/az nəzər yetirə bilərsiniz.

Xatırladaq ki, hazırda satışda olan ani lotereya biletlərində 200 000, 100 000, 50 000 və 25 000 manatlıq böyük uduşlar şanslı qaliblərin yolunu gözləyir.

*Səbuhi BAYRAMOV,*
*"Azərbaycan"*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

"Vətən Müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının ingilis dilinə tərcümə edilərək çap etdirilməsi və "Bakı parkları" adlı kitabların ingilis və rus dillərinə tərcümə edilmiş variantının redaktə edilərək çap etdirilməsi məqsədilə malların, işlərin və xidmətlərin satın alınması ilə bağlı

***təkliflər sorğusu elan edir***

LOT - 1. "Vətən Müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının ingilis dilinə tərcümə edilərək çap etdirilməsi və "Bakı parkları" adlı kitabların ingilis və rus dillərinə tərcümə edilmiş variantının redaktə edilərək çap etdirilməsi məqsədilə malların, işlərin və xidmətlərin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05.

**İştirak haqqı - 100,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, Nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Dövlət Statistika Komitəsindən).
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.
11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə).

İxtisas uyğunluğu sənədləri:
a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;
b) Malgöndərənin texniki imkanları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 24 fevral 2023-cü il saat 17:00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 27 fevral 2023-cü il saat 12:00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

"Bakıda körpülər və keçidlər" adlı kitabların ingilis və rus dillərinə tərcümə edilmiş variantının redaktə edilərək çap etdirilməsi məqsədilə malların, işlərin və xidmətlərin satın alınması ilə bağlı

***təkliflər sorğusu elan edir***

LOT - 1. "Bakıda körpülər və keçidlər" adlı kitabların ingilis və rus dillərinə tərcümə edilmiş variantının redaktə edilərək çap etdirilməsi məqsədilə malların, işlərin və xidmətlərin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: (012) 496-52-05.

**İştirak haqqı - 100,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, Nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
3. Tender təklifinin təminatı tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü qüvvədə olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Dövlət Statistika Komitəsindən).
9. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd.
11. İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə)

İxtisas uyğunluğu sənədləri:
a) Malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi;
b) Malgöndərənin texniki imkanları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 24 fevral 2023-cü il saat 16:00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 27 fevral 2023-cü il saat 11:00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***





# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| ***"Azərpoçt" MMC*** | *(012) 598-49-55, (051) 225-02-13* |
| ***"Azərmətbuatyayımı" ASC*** | *(012) 441-19-91, (050) 322-33-17* |
| ***"Qaya" firması*** | *(012) 566-77-80, (050) 214-40-53* |
| ***"Region Press" MMC*** | *(055) 316-79-01, (050) 316-79-01* |
| ***"Səma-M" MMC*** | *(012) 594-09-59* |
| ***"Ziya" LTD*** | *(012) 497-76-96, (050) 306-77-22* |
| ***"Pressinform" MMC*** | *(012) 598-49-52, (070) 340-01-00* |
| ***"City press" MMC*** | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 15.02.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Bibiheybət GTZ üçün pastəmizləyən avadanlığın və avadanlığın ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***

# Laçın-Xankəndi yolunda ekoaksiya 62 gündür davam edir





Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 62 gündür davam edir.



AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Lazım Quliyevə əzizi

**İSAX SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və şöbənin əməkdaşları Mehdi Qurbanov, Ziya Qasımov, Kəmalə Əzimova, Həsən Şirinov, Cahid Məmmədov, Seymur Əşrəfli və Gülarə İbrahimova Parlament Aparatı rəhbəri xidmətinin sektor müdiri Elçin Quliyevə atası

**VAHİB QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5048
Sifariş 342

Qiyməti 40 qəpik